

# Zəngilanın azad edilməsi zəfər tariximizin parlaq səhifəsidir

***Tarixdən bildiyimiz kimi, XIX əsrin əvvəllərində Qafqazın Rusiya tərəfindən işğalından sonra aparılmış inzibati-ərazi bölgüsü nəticəsində Zəngilanın da daxil olduğu Zəngəzur qəzası Gəncə quberniyasına tabe edilib və bir-birindən ayrı düşən ərazi vahidlərimiz pərakəndə coğrafi dəyişikliyə məruz qalıb. 1920-ci ilin 28 aprel istilasından sonra isə ermənilər bolşeviklərin köməyi ilə bizim əzəli torpaqlarımızda özlərinin ilk dövlətlərini qurublar. Nəticədə qəzanın yuxarı hissəsi Ermənistanın, Laçın, Qubadlı və Zəngilan bölgələri isə Azərbaycanın tərkibində qalıb. 1993-cü il oktyabrın 29-da isə Zəngilan erməni silahlı qüvvələri tərəfindən işğala məruz qalıb. Rayonun 45 minlik əhalisi məcburi olaraq ölkənin 43 rayonunda müvəqqəti məskunlaşıb.***

Düşmən zəngin təbii sərvətləri, tarixi və dini memarlıq abidələri olan Zəngilanı, onun 1 şəhər, 5 qəsəbə və 83 kəndini darmadağın edib. Yalnız 2020-ci il sentyabrıln 27-də Azərbaycan Silahlı Qüvvələrinin başladığı güclü əks-hücum əməliyyatları nəticəsində, 44 günlük zəfər yürüşü ilə ulu torpaqlarımız, o cümlədən Zəngilan düşmən tapdağından azad olunub. Bu yolda qanını, canını əsirgəməyən igidlərimizdən 6974 nəfəri "Zəngilanın azad olunmasına görə" medalı ilə təltif edilib.

Adı ilə də bir növ "zənginlik" assosiasiyası yaradan Zəngilan toponimi elə bir yerin ünvanıdır ki, orada çoxlu çöküntü süxurları, vulkanik materiallar – yura, təbaşir, faydalı qazıntılar – tikinti daşı, qızıl yatağı, qara mərmər və sair qiymətli maddi sərvətlər var. Araz, Həkəri, Oxçuçay və Bəsitçay bu ərazidən keçir. Faşist xislətli işğalçılar bütün bunlara vəhşicəsinə divan tutub, Qarabağı misli görünməmiş ekoloji terrora məruz qoyublar. Oxçuçayın çirkləndirilməsi, dünyada Kanadadan sonra ikinci yeri tutan Zəngilanın təbii çinar meşəsinin tamamilə talan edilməsi insani dəyərlərlə heç cür bir araya sığmır.

Ötən il 44 günlük şanlı zəfər yürüşünün 24-cü günündə Azərbaycan Prezidenti, müzəffər Ali Baş Komandanımız cənab İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Silahlı Qüvvələrimizin Zəngilanı azad etməsi bir çox cəhətdən mühüm əhəmiyyət daşıyır. Ən başlıcası, bu, İranla dövlət sərhədlərimizin tam bərpasını reallaşdırmağa imkan verib. Dərhal sonra orada sərhəd boyunca bütün zəruri istehkam, mühafizə işləri görülməsinə başlanıb. Elə daim işğalçı Ermənistanla yaxınlıq edən cənub qonşumuzun son vaxtlar sərhədlərin möhkəmləndirilməsinə, Zəngəzur dəhlizinin açılmasına qarşı açıq çıxışlar etməsinə də bu, səbəb olub. Çünki möhtərəm Prezidentimiz İlham Əliyevin də dediyi kimi, 30 il ərzində həmin sərhəd ərazisindən İran maşınları ilə Xankəndinə gizli şəkildə yanacaq daşınıb, bu nəzarətsiz yoldan, həmçinin narkotrafik kimi istifadə olunub. Bundan milyonlar qazanan tərəflərin qıcıqlanması və sərhəddə qayda-qanun yaradılmasını qısqanclıqla qarşılaması bir növ təbiidir. Axı, atalar demişkən, xain xoflu olar.

Bildiyimiz kimi, Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva ötən il dekabrın 23-də azad Zəngilana ilk səfərlərini ediblər. Prezident Zəngilan şəhərində Azərbaycan bayrağını qaldırıb. Qələbədən sonra bu rayona daha bir neçə dəfə səfər etmiş cənab İlham Əliyev aparılan bərpa-quruculuq işlərinə bilavasitə özü nəzarət edir. Həmin səfərlər onu göstərir ki, "Böyük Qayıdış" üçün bütün mövcud potensiallar tam səfərbər olunub. Zəngilanda artıq bir neçə aydan sonra birinci keçmiş köçkünlər yerləşəcək. Onlar pilot layihələr çərçivəsində "ağıllı şəhər" və "ağıllı kənd"lərdə hər cür şəraitlə təmin olunacaqlar. Orada eyni zamanda "yaşıl enerji" zonası, "ağıllı tədris", "ağıllı səhiyyə", "ağıllı kənd təsərrüfatı" sistemləri də həyata keçiriləcək və dünyaya millətimizin necə vətənsevər və çağdaş-intellektual potensiala malik olduğu nümayiş etdiriləcək.

Zəngilana qayıdış Zəngəzura qayıdışın ilk inamlı addımı kimi önəm kəsb edir. Dövlətimiz öz gücü hesabına bütün bərpa və quruculuq işlərini reallaşdırır. Eyni zamanda, Heydər Əliyev Fondu, digər qurumlar da Zəngilanın və işğaldan azad olunmuş digər bölgələrimizin infrastrukturunun sürətlə bərpa edilməsi naminə ciddi səylər göstərirlər.

Zəngilanın işğaldan azad edilməsinin birinci ildönümündə Prezident İlham Əliyevin yenidən bu rayona səfər etməsi 28 illik yurd həsrətinə son qoyulan keçmiş məcburi köçkünlərimizin böyük sevincinə səbəb olub. Dövlət başçımızın rayon ictimaiyyəti ilə görüşü, orada söylədiyi fikirlər doğma ata ocaqlarına qayıdacaqları günü səbirsizliklə gözləyən soydaşlarımızın sabaha inamını daha da artırıb. Onlar bir daha əmin olublar ki, bu səfər onların "Böyük Qayıdışı"nı sürətləndirən növbəti bir addımdır.

***Hikmət XƏLİLOV,***
***Azərbaycan Silahlı Qüvvələrinin ehtiyatda olan zabiti***

Xalq qəzeti .- 2021.- 21 oktyabr.- S.6.